22-28 yanvar 2026-cı il

Əsəd Dilbazov - 100

# Böyük alim və pedaqoq

***Bu günlərdə tanınmış iqtisadçı alim, nüfuzlu pedaqoq, iqtisad elmləri doktoru, professor Əsəd Dilbazovun anadan olmasının 100 illiyini qeyd etdik.***

Azərbaycanda iqtisadi tarix elminin görkəmli nümayəndələrindən biri olan, iqtisad elmləri doktoru, professor Əsəd Dilbazov (Dilbazi) 1926-cı il yanvarın 12-də Qazax mahalının qədim Xanlıqlar kəndində anadan olmuşdur. Orta təhsilini elə Qazax şəhər orta məktəbində almışdır. 1943-cü ildə orta məktəbi əla qiymətlərlə bitirərək, elə həmin il Azərbaycan Dövlət Pedaqoji İnstitutunun tarix fakültəsinə daxil olmuşdur. 1947-ci ildə institutu «Orta məktəbdə tarix müəllimi» ixtisası üzrə fərqlənmə diplomu ilə başa vurur. Əsəd Dilbazov institutun ictimai həyatında fəal iştirak edir, sovet dönəmində mühüm yer tutan komsomol işində fəallıq göstərirdi, məhz bunun sayəsində 1947-ci ilin martında artıq Kommunist Partiyasına üzv ola bilir.

Ali məktəbi bitirdiyi il onun elmə olan həvəsini, hazırlığını və əlbəttə, partiyalılığını nəzərə alaraq, aspiranturada saxlayırlar. Elə həmin tarix ali məktəblərdə onun uzun sürən - 56 illik elmi həyatının başlanğıc nöqtəsi sayıla bilər. O, 1947-ci il oktyabrın 1-dən 1950-ci il oktyabrın 1-nə qədərki dövrdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun "SSRİ tarixi" kafedrasında aspiranturada təhsilini davam etdirmiş, 1950-53-cü illərdə bu kafedranın assistenti, 1953-60-cı illərdə isə baş müəllimi olmuşdur.

***Pedaqoji fəaliyyətlə yanaşı, elmi tədqiqatlarını davam etdirən Ə.Dilbazov namizədlik dissertasiyasını 1959-cu ilin oktyabrında Azərbaycan Dövlət Universitetinin tarix fakültəsində müdafiə etmişdir.***

Bundan sonra ali məktəbdə pedaqoji fəaliyyətini, eyni zamanda Azərbaycanın iqtisadi tarixinin perspektiv problemləri üzrə elmi-tədqiqat işlərini fasiləsiz davam etdirmişdir. Ə.Dilbazov elmi tədqiqatlarını müvəffəqiyyətlə başa çatdırmaq üçün 1971-ci ildə 2 il müddətinə baş elmi işçi vəzifəsinə keçirilmiş və 1974-cü ildə "Azərbaycan SSR-də sosialist sənayesinin formalaşması problemləri" üzrə elmi işini başa çatdırıb, həmin ildə də doktorluq dissertasiyasını müdafiə etmişdir. O, respublikada iqtisadi tarix sahəsi üzrə ilk doktorluq dissertasiyası müdafiə edənlərdən biridir. Ə.Dilbazovun iqtisad elmi sahəsində marağı və yaradıcılıq fəaliyyəti geniş olub, müxtəlif problemləri əhatə edib. Onun elmi fəaliyyətində istər nəzəri, istərsə də tətbiqi baxımdan bilavasitə cəmiyyətin inkişafının sosial-iqtisadi problemləri aparıcı yer tutur və orjinallığı ilə fərqlənir.

Keçmiş İttifaqın görkəmli alimlərinin rəyinə görə, Əsəd Dilbazov iqtisadi tarix elminin zənginləşdirilməsinə öz layiqli töhfəsini vermişdir. Zamanında onun ciddi qarşılanmış əsərləri sırasında «Sənayenin milliləşdirilməsinin Sovet metodu» (1970), «Azərbaycan SSR-də sosialist sənayesinin formalaşması problemləri» (1976), «SSRİ və xarici ölkələrin iqtisadi tarixi» (1978), «Azərbaycanda kapitalist sənayesinin inkişaf



mərhələləri» (2000) və s. kitabları, çoxlu elmi məqalələri onun elmi-tədqiqat dairəsinin genişliyindən xəbər verir. Ümumiyyətlə, elmi əsərlərinin yüksək nəzəri və elmi-praktiki tədqiqatlarının metodoloji və metodiki əsasları göstərir ki, onun elmi fəaliyyəti iqtisadi nəzəriyyə və sosial problemlərin qovuşuğunda cərəyan edib. İndi Azərbaycanın suverenlik qazanması, yeni iqtisadi-sosial sistemə keçməsi ilə əlaqədar iqtisadiyyatın inkişaf yönümü tədricən köklü surətdə dəyişdirilməli və mütərəqqi istiqamət aparılmalıdır. İqtisadçı alimlərin bu sahədə də özlərinə məxsus vəzifə borcları vardır. Ə.Dilbazov bu aktual məsələnin araşdırılması sahəsində ön sıralarda gedən iqtisadçı alimlərdən biri idi. Hələ bazar iqtisadiyyatına keçidin ilk vaxtlarından başlayaraq, mütəmadi olaraq bu problemə dair elmi araşdırmalar aparmağa başlamış, təklif və tövsiyələr irəli sürmüşdür. Ə.Dilbazov bir çox beynəlxalq simpoziumlarda, İttifaq elmi konfranslarında iqtisadi-nəzəri və praktik problemlər üzrə məruzələr və çıxışlar etmişdir. O, 1970-ci ildə Leninqradda iqtisadi tarix problemləri üzrə keçirilən beynəlxalq konqresdə **"Sənayenin milliləşdirilməsinin sovet metodu"** adlı məruzə ilə çıxış etmişdir.

Qeyd edək ki, ötən əsrin 50-60-cı illərində Azərbaycanda bəşəri iqtisad elminin yeni bir sahəsinin formalaşma prosesi istiqamətində akademik Əlisöhbət Sumbatzadənin başçılığı ilə böyük işlər görülürdü. 60-cı illərin ortalarından başlayaraq demək olar ki, SSRİ Ali Attestasiya Komissiyasının qərarı ilə Azərbaycan Elmlər Akademiyasında doktorluq dissertasiyası üzrə ixtisaslaşdırılmış şura yaradılır. Uzun illər bu şuraya başçılıq edən akademik Əlisöhbət Sumbatzadəni yaratdığı əsərlərə, xüsusilə "Azərbaycan sənayesi XIX əsrdə", "Azərbaycan kənd təsərrüfatı XIX əsrdə" fundamental tədqiqatlarına, "Xalq təsərrüfatının iqtisadi tarixi" elm sahəsinin əsl yaradıcısı və müvafiq elmi məktəbin başçısı olduğuna görə ədalət, haqq naminə iqtisadçı alimlərin də ən müdrik ağsaqqallarından biri hesab etmək olar. Akademik Ə.Sumbatzadə əsl vətən oğlu kimi, Azərbaycanın iqtisadçı alimlərinin yetişməsində böyük fəallıq göstərib. Onun sağlam elmi mühitin formalaşması üçün etdiyi səylər nəticəsində rəhbərlik etdiyi Elmi Şurada Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrinin dərin təhlilinə dair doktorluq dissertasiyaları müdafiə edilib.

***Bu gün mübaliğəsiz demək olar ki, iqtisad elmləri doktoru, professor Qaçay Heydərov, iqtisad elmləri doktoru, professor Sonya Haqverdiyeva, iqtisad elmləri doktoru, professor Qüdrət Əbdülsəlimzadə, iqtisad elmləri doktoru, professor Mirağa Musayev və iqtisad elmləri doktoru, professor Əsəd Dilbazov Azərbaycanda iqtisadi tarix elminin yaradıcısı olan Ə.Sumbatzadə məktəbinin layiqli davamçıları olmuşlar.***

Əsəd Dilbazov respublikada iqtisadiyyatın elmi sahəsində elmi-pedaqoji kadrların hazırlanmasında çox enerji sərf edib.

Professor Ə.Dilbazov D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda pedaqoji fəaliyyəti ilə paralel olaraq Azərbaycanın iqtisadi tarixinin aktual, perspektivli problemləri üzrə elmi-tədqiqat işlərini də uğurla davam etdirmişdir. Əsəd Dilbazov elmi araşdırmalarını uğurla başa çatdıra bilməsi üçün 1971-ci ildə 2 il müddətinə baş elmi işçi vəzifəsinə keçirilir və 1974-cü ildə «Azərbaycan SSR-də sosialist sənayesinin formalaşması problemləri» mövzusunda doktorluq elmi işini müvəffəqiyyətlə yekunlaşdırır. Əsər bir müttəfiq respublika olaraq Azərbaycanda iqtisadi quruculuğun 1920-28-ci illər dövrünü əhatə edirdi. Bu dissertasiya ilə o, respublikada iqtisadi tarix elmi üzrə ilk doktorluq dissertasiyasını müdafiə edənlərdən, bu elmin əsasını qoyanlardan biri oldu. 1977-ci il yanvarın 21-də ona iqtisad elmləri doktoru elmi dərəcəsi, 1979-cu il fevralın 23-də isə AXTİ-nin "Tarix kafedrası"nın professoru vəzifəsi verilir. Sonrakı beş il, yəni 1975-ci ildən 1980-ci il noyabrın 28-dək Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda **"Xalq təsərrüfatının iqtisadiyyatı və planlaşdırılması"** fakültəsinin dekanı vəzifəsini tutur.

Əsəd Dilbazov 1980-ci ilin oktyabrından 1984-cü ilin oktyabrınadək AXTİ-nin "Siyasi İqtisad" kafedrasının professoru (iqtisad tarixi fənnini tədris etməklə) olmuşdur. Onun sonrakı fəaliyyətində iqtisadi tarix üzrə aparıcı mütəxəssis olmaqla bu fənnin tədrisinin təşkili, elmi araşdırmalara rəhbərlik xüsusi yer tutmuşdur. 1984-cü ilin dekabrından 1987-ci ilin noyabrınadək AXTİ-nin "İqtisad tarixi" kafedrasının müdiri vəzifəsində çalışması da təsadüfi sayıla bilməz. O, əldə etdiyi bilik və müvəffəqiyyətlərlə kifayətlənməyərək, həmişə yeniliklərə can atmış, yaşı və təcrübəsinə baxmayaraq, biliyini artırmağa çalışmışdır. Məsələn, 1984-cü ildə Tbilisi Dövlət Universitetinin "İqtisad tarixi" və "İqtisadi təlimlər tarixi" kafedrasında elmi-pedaqoji fəaliyyət göstərmişdir.

Ə.Dilbazov 1988-ci ilin yanvarından müddətli müqavilə ilə Voznesenski adına Leninqrad Maliyyə-İqtisad İnstitutu Bakı filialının "Sov.İKP tarixi" kafedrasının professoru vəzifəsinə təyin edilmişdir. Bu vəzifəyə təyinat almaq üçün institut şurası tərəfindən müsabiqə qaydasında seçki keçirilmişdi. 1989-cu ildən ömrünün sonuna kimi Azərbaycan Dövlət İqtisad İnstitutunun "Azərbaycan tarixi" kafedrasının professoru kimi fəaliyyətini davam etdirmişdir. İqtisad elmləri doktoru, professor Əsəd Dilbazov uzun illər bu mühüm təhsil ocağında fəaliyyət göstərmiş, yüksəkixtisaslı iqtisadçı kadrların hazırlanmasına, Azərbaycan iqtisad elminin inkişafına öz layiqli töhfəsini vermişdir.

***O, respublikanın, eləcə də keçmiş İttifaqın nəşriyyatlarında çap olunmuş xeyli sayda monoqrafiya, dərslik, elmi səciyyəli jurnal məqalələrinin elmi redaktoru və müəllifi olmuşdur. Məsələn, göstərilir ki, professor Ə.Dilbazov 5 monoqrafiya, 50-dən çox elmi məqalənin müəllifidir. Bu dəyərli əsərlərilə sovet dönəmində və sonra onun iqtisad elminin zənginləşdirilməsində az rol oynamadığı şəksiz qəbul edilir.***

Ə.Dilbazov eyni zamanda təşəbbüskar, yüksək qabiliyyəti ali məktəb təşkilatçısı kimi tanınmışdır.

O, bir çox beynəlxalq simpoziumlarda, keçmiş SSRİ-nin Ümumittifaq elmi konfranslarında iqtisadi-nəzəri və praktik problemlər üzrə məruzələr və çıxışlar etmişdir. O, 1970-ci ildə Leninqradda iqtisadi tarix problemləri üzrə keçirilən beynəlxalq konqresdə "Sənayenin milliləşdirilməsinin Sovet metodu" adlı məruzə ilə çıxış etmişdir. Sonradan həmin məruzə kitab şəklində çap olunmuşdur. Bundan başqa, ümumittifaq və respublika elmi konfranslarında, elmi seminarlarda iqtisadi məsələlərə dair dəfələrlə nəzəri-metodoloji aspektli məruzələrlə çıxış etmişdir.

Professor Ə.Dilbazov iqtisad elminin inkişafı, yüksəkixtisaslı kadrların hazırlanması və təlim sahəsindəki xidmətlərinə görə dəfələrlə müxtəlif mükafatlara layiq görülmüşdür. Tam məsuliyyətlə bildirmək istəyirəm ki, Əsəd Dilbazov 1970-80-ci illərdə Sovetlər birliyində xalq təsərrüfatının iqtisadi tarixini dərindən araşdıran məhsuldar alimlərdən biri hesab edilirdi.

2002-ci ildə anadan olmasının 75 illiyi münasibəti ilə ölkə prezidentinin fərmanına əsasən «Şöhrət» ordeninə layiq görülmüşdür. Əsəd Dilbazov böyük alim və pedaqoq olmaqla yanaşı, yüksək mənəvi keyfiyyətlərə malik müəllim olmuşdur. 21 iyul 2003-cü ildə Bakı şəhərində vəfat etmişdir.

Görkəmli alim, tanınmış pedaqoq Əsəd Dilbazovun əziz xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaq.

**Akademik**
**Ziyad SƏMƏDZADƏ**